https://doi.org/10.59849/2410-5600.2025.2.59

UOT: 930.25.; 82

**Gülüş Səfərzadə**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: gulushsafarzada@gmail.com*

# ƏLİ SƏRKAROVUN "ƏLVAHİ-HƏYAT" HEKAYƏLƏR TOPLUSU: MAARİFÇİLİK ƏDƏBİ FİKRİNİN DAVAMI KİMİ

**Xülasə**

Məqalədə XX əsrin əvvəlləri Azərbaycan maarifçi nəsrinin nümayəndələrindən olan Əli Sərkarovun "Əlvahi-həyat" hekayələr toplusu tədqiq edilir. Yazıçının hekayələri ideya-məzmun baxımından xalqın cəhalətdən xilasını, elm və maarifin əhəmiyyətini önə çəkir. Məqalədə "Bağladılar", "Mələksima", "Şərifə bacı" və "Məişətimizdən bir nəbzə" hekayələri maarifçi realizm kontekstində təhlil olunur. Əsərlərinin bədii-estetik xüsusiyyətləri, obrazlar sistemi və dil-üslub xüsusiyyətləri araşdırılır. Nəticə olaraq göstərilir ki, Ə.Sərkarovun yaradıcılığı Azərbaycan ədəbiyyatında pedoqoji və humanist ideyaları birləşdirən maarifçi nəsrin davamı kimi mühüm əhəmiyyətə malikdir.

***Açar sözlər:*** *Əli Sərkarov, "Əlvahi-həyat", əlyazma, maarifçilik, Qori seminariyası, qadın təhsili, cəhalət*

## Giriş

*XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında maarifçilik ideyalarının güclənməsi, yeni ictimai düşüncənin formalaşması dövrü idi. Bu mərhələdə Qori müəllimlər seminariyasının yetirmələri arasında maarifçilik hərəkatının daşıyıcıları, xalqın tərəqqisi və savadlanması uğrunda çalışan ziyalılar yetişdi. Onlardan biri də maarifçi, yazıçı, publisist Əli Sərkarov idi. O həm pedoqoji fəaliyyəti, həm də qələmə aldığı bədii əsərləri və publisistik yazıları ilə maarifçi ziyalı obrazının formalaşmasında rol oynamışdır.*

*Ə.M.Sərkarovun yaradıcılığı hələ geniş şəkildə tədqiq olunmamışdır. Onun "Zavallı", "Bir qabda iki hekayə", "Məhəbbətdən" hekayələrindən ibarət ilk kitabı "Orucov qardaşları" mətbəəsində, "Yarələrim" adlı ikinci kitabı isə 1914-cü ildə "Kaspi" mətbəəsində çap olunmuşdur. Kitaba ədibin "O da fərəhləndi", "Xatiratımdan", "Bayram xatiratımdan" adlı hekayələri daxildir.*

*AMEA M.Füzuli adına Əlyazmalar institutunda Ə.Sərkarovun iki əlyazması mühafizə olunur. Bunlardan biri şagird dəftərində yazılmış 43 səhifədən ibarət "İki həyat" hekayəsidir. Bu hekayə ədibin həcmcə ən böyük və əhatə etdiyi mövzu baxımından ən geniş hekayəsidir. "Əlvahi həyat" ("Həyat lövhələri") adlanan ikinci əlyazmasında ədibin dörd hekayəsi yer alır: "Bağladılar", "Mələksima", "Şərifə baçı" və "Məişətimizdən bir nəbzə". Bu əlyazma da müəllif tərəfindən şagird dəftərində yazılmışdır, 38 səhifədən ibarətdir.*

*Ə.Sərkarov 1911-1912-ci illərdə Qoridə yazdığı "Əlvahi-həyat" adı altında birləşdirilmiş hekayələr toplusu Azərbaycan nəsrinin maarifçi mərhələsini əks etdirən əhəmiyyətli bədii mənbələrdən biridir. Bu hekayələrdə yazıçı dövrün sosial-mədəni problemlərini – savadsızlıq, qadın təhsilinin məhdudluğu, batil inanclar, müəllimlərin ağır həyatı, maddi-mənəvi gerilik kimi məsələləri realist və tənqidi nöqteyi-nəzərdən əks etdirir.*

*Toplunu təşkil edən dörd hekayə − "Bağladılar", "Mələksima", "Şərifə bacı" və "Məişətimizdən bir nəbzə" – həm növzu, həm də ideya baxımından bir-birini tamamlayır. Əsərlərin*

*ümumi xətti maarif, elm və mədəni tərəqqinin təbliğinə yönəlmişdir. Yazıçının dili sadə və aydın, üslubu isə publisistik realizmlə müşayiət olunur. Hadisələrin baş verdiyi məkan və obrazlar sistemi müəllifin həm cəmiyyətin geriliyindən doğan ağrıları, həm də gələcəyə inamını əks etdirir.*

*Məqalənin məqsədi Ə.Sərkarovun "Əlvahi-həyat" hekayələr toplusunu elmi-ədəbi baxımdan təqdim etmək, onun bədii-estetik və ideya-məzmun xüsusiyyətlərini təhlil etmək, yazıçının maarifçi ədəbiyyat ənənələri ilə əlaqəsini göstərməkdir.*

Ə.Sərkarovun "Əlvahi-həyat" toplusu həyatın müxtəlif qatlarından götürülmüş səhnələri – yəni "lövhələri" – təsvir etməklə maarifçi düşüncənin bədii ifadəsini yaradır. Hər bir hekayə cəmiyyətin müəyyən sosial zümrəsini, insan təfəkkürünün fərqli səviyyələrini əks etdirir.

Əsərlərin dili və üslubu dövrün maarifçi nəsr ənənələrinə uyğun olaraq sadə, lakin təsirli və canlıdır. Müəllif xalq danışıq dilinə yaxın bir ifadə tərzindən istifadə edir, dialoqlarla süjeti canlandırır, hekayə dilinə təbiilik və səmimilik gətirir. Bu cəhətdən "Əlvahi-həyat" Mirzə Fətəli Axundzadə və Cəlil Məmmədquluzadə xəttinin davamı kimi dəyərləndirilə bilər: müəllif bədii təsvir vasitəsilə oxucunu düşündürmək, tərbiyə etmək və maarifləndirmək məqsədi daşıyır.

Toplunun ideya istiqaməti bütövlükdə maarifçilik və realizm prinsiplərinə əsaslanır. Hekayələrdə müəllif həyatı olduğu kimi göstərməyə, dövrün sosial problemlərini – müəllimlərin maddi sıxıntılarını, qadınların təhsil hüquqlarının tapdanmasını, cəhalət və mövhumatın, batil inancların hökm sürdüyü mühiti – açıq şəkildə ifşa etməyə çalışır. Bununla yanaşı, yazıçı pessimizmə qapılmır, oxucusuya maarif və elm yolu ilə nurlu gələcəyə aparan ümid və inam aşılayır.

Toplunun əsas ideyası maarifin və elmin gücünə inamdır.

Hekayələrdə müəllifin təcrübəsindən doğan müşahidələr də açıq sezilir. Bu xüsusilə "Bağladılar" hekayəsində öz əksini tapır: burada Molla Cabbar obrazı həm maarifə sadiq müəllimin, həm də cəmiyyətin nadanlığı qarşısında məğlub olan bir idealistin simvoludur. Digər hekayələrdə də müəllif insan talelərindən çıxış edərək bir dövrün mənəvi panoramasını yaradır, ictimai ədalətsizliyin səbəblərini maarifin yoxluğunda görür.

Ə.Sərkarovun "Əlvahi-həyat" toplusu XIX əsrin sonu - XX əsrin əvvəlləri Azərbaycan maarifçiliyinin əsas ideya istiqamətlərini bədii formada əks etdirir. Yazıçı hekayələrində xalqın geriliyinin səbəblərini savadsızlıqda, cəhalətdə və dini fanatizmdə görür. Onun qəhrəmanları sadə xalq nümayəndələridir – müəllim, kənd sakini, qadın, uşaq – lakin bu obrazlar vasitəsilə bütöv bir dövrün mənəvi siması, cəmiyyətin düşüncə tərzi və təhsil səviyyəsi canlandırılır.

"**Bağladılar**" hekayəsində müəllim Molla Cabbarın faciəli həyatı vasitəsilə cəhalətə qarşı mübarizə, yeni məktəb ideyalarının yayılması və köhnə düşüncə ilə ziddiyyət məsələləri qabardılır. Müəliminə həsr etdiyi bu hekayədə Ə.Sərkarovun Molla Cabbara olan rəğbəti açıq-aydın hiss olunur. Əsərin əvvəlində müəllif Molla Cabbarı belə təqdim edir:

"Biliyormısınız kim idi Molla Cabar?!

Artıq danışmaq nə lazım, Molla Cabar, vücudi, ruhi, ... bütün fikir və amalı dərs verdigi məktəbdə olan bir şəxs idi. Ustadı və müəllimi oldıqı uşaqları qayətdə seviyordı, onlar dəxi buna qarşu borclu qalmıyordılar; bu onları sevdigi kimi, onlar da bunı seviyordılar. Molla Cabar öylə dahi bir müəllim idi ki, bir neçə nəfər İstanbulda təhsil görmüş müəllimlər bunın məktəbinə gəldikdə mahirligini görüb təəccüb ediyordılar. Məscid hücrəsindən çıqub fənn, tərbiyə və tədrisdən bixəbər, bir az ordan-burdan eşitmək ilə iktifa eləyüb üsuli-cədid üzrə dərs verməgə başladı; məharəti ildən-ilə artardı. Molla Cabar öylə bir müəllim idi ki, ünas məktəbinin adı çəkiləndə nifrət oxuyan əvam cəmaətin qızlarına oğlanları ilə bir yerdə isqamya üstində oturdub təlim veriyordı. İki dərs otağında altmışa qədər oğlan, qız dərsə məşqul olurdılar, bununla belə, Molla Cabar tək canına məktəbini öylə idarə ediyordı ki, heç bir "səs-səmir" olmazdı". [1, s.7]

Molla Cabbar öz vicdanı, biliyi və təhsil eşqi ilə yaşasa da, cəmiyyətin laqeydliyi və maddi sıxıntılar içində tənha qalır. Hekayənin sonunda məktəbin bağlanması hadisəsi simvolik məna daşıyır: bu həm cəmiyyətin maarifə qarşı biganəliyinin, həm də ziyalının mübarizəsinin nəticəsiz qalmasının ifadəsidir. Əslində, müəllif Molla Cabbarın dili ilə xalqın geriliyinə acı bir etiraz səsləndirir, lakin ümidsizliyə düşmür – onun sükutunda gələcək nəsillərə ünvanlanan bir çağırış var.

"**Şərifə bacı**" hekayəsində müəllif xalq arasında kök salmış batil inancları və saxta "həkimlik", "tas qurmaq" kimi mövhumat formalarını tənqid edir. Şərifə bacı obrazı bir tərəfdən nadanlığın məhsulu, digər tərəfdən yoxsulluğun qurbanıdır. Müəllif bu obraz vasitəsilə maarifsizliyin həm mənəvi, həm də sosial fəsadlarını göstərir. Hekayənin sonunda müəllif qəhrəmanın vəziyyətinə ironik, lakin mərhəmətli münasibət bildirərək göstərir ki, cəhalət çox vaxt aclıq və səfalət fonunda meydana çıxır.

"**Məişətimizdən bir nəbzə**" hekayəsində maarifçilik ideyaları ailə-məişət müstəvisində təqdim olunur. Hekayənin əsas ideyası qadın təhsili məsələsidir. Firidun obrazı elmli, Avropa təhsilli gənc ziyalı kimi Zəlixa adlı savadsız qızla evlənməkdən imtina edir. Müəllif bu qarşıdurma ilə iki müxtəlif dünyagörüşünü – köhnə ailə ənənələri ilə yeni maarifçi düşüncə tərzini üz-üzə qoyur. Müəllif bu qənaətdədir ki, iki gənc bir-birini nə qədər sevirsə sevsin, onların arasında dünyagörüşü, inkişaf fərqi varsa, bu evlilik uğursuzluğa məhkumdur. Bu baxımdan sevdiyi qızla evlənməkdən imtina edən Firiduna haqq qazandırmamaq olmur. O, Zəlixa ilə evlənməyini istəyən xalasına deyir: "Budur, bir az müddətdən sonra mən həkimlik başlayacağam. Mənim içün mənə layiq adam lazımdır, öylə adam tapılar – heç, tapılmaz isə, evlənmərəm. Yoxsa, Zəlixa ilə bizim dolanacağımız, genə deyorəm, dönəcəkdir cəhənnəmə. Sizin məgər bu yazıq qıza insafınız gəlmirmi? Biz nə qədər biri-birimizi sevsək də, aralıqda dava və qeylü-qalımız əskik olası degil". [1, s.34] "Bir də, həm də müşkül burasındadır ki, mən bəlkə oğul, qız atası oldım, Zəlixa onlara nə qaidə üzrə tərbiyə verəcəkdir? Mənim uşaqlarım da olacaqlar onun qardaşları kimi, mən bu işə heç vəqt razı ola bilmərəm". [1, s.35]

Hekayə, əslində, qadınların savadsızlığının yalnız onların deyil, bütün cəmiyyətin faciəsi olduğunu göstərir.

"**Mələksima**" hekayəsi maarifçi nəsrdə poetik və sentimental istiqamətin təzahürüdür. Burada müəllifin diqqəti insanın mənəvi aləminə, təmiz duyğulara və uşaqlıq xatirələrinə yönəlir. Mələksima obrazı həyatın faniliyi, təbiətin və insan hislərinin gözəlliyi kimi romantik motivləri özündə birləşdirir. Bu əsərdə də maarifçi ruh duyulur: müəllif sevgi və saf duyğuları mənəvi tərbiyənin, zərifliyin və insani kamilliyin ifadəsi kimi təqdim edir. Hekayənin humanist ruhu Sərkarovun mənəvi-əxlaqi tərbiyə ideyaları ilə səsləşir.

Toplunun bütün hekayələrində əsas xətt eynidir: cəmiyyətin tərəqqisi yalnız elm və maarif sayəsində mümkündür. Ə.Sərkarov bu ideyanı müxtəlif həyat lövhələri vasitəsilə konkretləşdirir – müəllim obrazında fədakarlığı, qadın obrazında maarifsizliyin ağrısını, xalq arasında isə yanlış inanc və adətlərin dağıdıcı təsirini göstərir. Hekayələrin sonunda müəllif açıq, didaktik nəticə çıxarmasa da, hadisələrin gedişi oxucunu maarifə, elmə və insanpərvərliyə səsləyir.

Beləliklə, bütün hekayələri birləşdirən əsas xətt – insanın maariflə, elm və tərbiyə ilə kamilləşməsi ideyasıdır.

Əli Sərkarovun "Əlvahi-həyat" hekayələr toplusu Azərbaycan realizminin və maarifçi ədəbiyyatının mühüm mərhələsini təmsil edir. Onun hekayələri XIX əsrin sonu, XX əsrin əvvəllərində formalaşan maarifçi nəsr ənənəsinin davamı olmaqla yanaşı, həmin dövrün ictimai fikir tarixində mühüm ideya dönüşünü də əks etdirir. Yazıçının yaradıcılığında başlıca məqsəd yalnız estetik zövq oyatmaq deyil, eyni zamanda oxucunu düşünməyə, maarif və tərəqqi haqqında nəticə çıxarmağa sövq etməkdir.

Ə.Sərkarovun hekayələri həm ideya, həm də bədii quruluş baxımından Cəlil Məmmədquluzadə, Abdulla Şaiq, Nəriman Nərimanov, Nəcəf bəy Vəzirov kimi müasirləri ilə eyni mənəvi mühitin məhsuludur. Lakin onun əsərlərində daha çox pedoqoji maarifçilik xətti ön plana çəkilir. Sərkarov müəllim və tərbiyəçi kimi insanın formalaşmasında təhsilin, məktəbin və əxlaqi tərbiyənin roluna xüsusi önəm verir. "Bağladılar" hekayəsində müəllim obrazı sadəcə fərdi bir taleyin deyil, bütöv bir maarifçi təbəqənin faciəsini ümumiləşdirir.

Müəllifin yaradıcılığında realizm ideyası sosial mahiyyət daşıyır. O, hadisələri bəzəksiz, həyatın öz axarı ilə təqdim edir, qəhrəmanların psixologiyasını sadə, anlaşılan bir dildə açır. Hekayələrdə təbiilik, canlı dialoqlar və danışıq dilinə yaxın ifadə tərzi yazıçının ədəbi üslubunun səciyyəvi cəhətləridir. Əsərlərin bu xüsusiyyəti onları həm elmi, həm də dil-üslub baxımından dəyərli mənbəyə çevirir.

Ə.Sərkarovun "Əlvahi-həyat" hekayələri maarifçi nəsrin əsas prinsiplərini – xalqın tərəqqisinə inamı, elmin və təhsilin gücünə etiqadı, qadın azadlığı və sosial ədaləti – bədii formada ifadə edir. Yazıçı cəhalət və avamlığın insan taleyini necə məhv etdiyini göstərməklə yanaşı, maarifin bu zənciri qıra biləcəyinə dərin inam bəsləyir.

Əsərlərin estetik dəyəri onların səmimiyyətində, humanist ruhunda və milli-mənəvi dəyərləri qorumaqla yeniliyə çağırışında ifadə olunur. Ə.Sərkarovun dili xalq dilinə söykənir, onun ideyaları isə Avropa maarifçiliyi ilə səsləşir. Yazıçının bu iki başlanğıcı – milli təfəkkür və universal humanizm prinsiplərini uzlaşdırmaq bacarığı onun ədəbi irsini müasirləri ilə bir sıraya gətirir.

Beləliklə, "Əlvahi-həyat" təkcə bir dövrün ədəbi məhsulu kimi deyil, həm də Azərbaycan maarifçilik hərəkatının bədii ifadəsi kimi dəyərləndirilməlidir. Ə.Sərkarovun bu toplusu maarifçi-realizmin həlqələrindən biri olmaqla, XX əsr Azərbaycan nəsrinin ideya və üslub inkişafını əks etdirir.

**Nəticə**

*Əli Sərkarovun "Əlvahi-həyat" hekayələr toplusu Azərbaycan nəsrində maarifçi-realizmin dəyərli nümunələrindən biridir. Yazıçı bu əsərlərdə xalqın mənəvi və sosial həyatının müxtəlif qatlarını təsvir etməklə cəmiyyətin tərəqqisi üçün əsas yolun elm, təhsil və əxlaqi tərbiyədən keçdiyini göstərmişdir. Onun qəhrəmanları – Molla Cabbar, Firidun, Şərifə bacı, Mələksima kimi obrazlar – bir dövrün ictimai düşüncəsini, insanın maariflənmə prosesini və cəhalətə qarşı mübarizəni təcəssüm etdirir.*

*Sərkarovun hekayələrində maarifçilik ideyaları bədii forma və realizm prinsipləri ilə vəhdətdə təqdim olunur. Müəllif hadisələri həyatın öz axarında, təbii mühitdə və xalq dilinə yaxın ifadələrlə təsvir edir. O, oxucunu maarif və tərəqqi uğrunda düşünməyə sövq edən müəllim mövqeyində çıxış edir. Bu baxımdan Ə. Sərkarovun nəsri həm bədii, həm də pedoqoji ideallarıın birləşdiyi bir məktəb nümunəsidir.*

*"Əlvahi-həyat" təkcə müəllifin ədəbi irsinin deyil, bütövlükdə Azərbaycan maarifçi düşüncəsinin mühüm mərhələsini əks etdirir. Əsərlərdəki humanist ruh, sadə insan talelərinə diqqət, elmə və savada inam onu milli realist ədəbiyyatın canlı nümunələrinə çevirir. Bu toplu həm də dövrün sosial-psixoloji mənzərəsini sənədli dəqiqliklə əks etdirdiyinə görə ədəbiyyat tarixi və dilçilik tədqiqatları üçün dəyərli qaynaq rolunu oynayır.*

*Əli Sərkarovun yaradıcılığı XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycan maarifçilik hərəkatının bədii bir parçası kimi qiymətləndirilməlidir. Onun yaradıcılığının tədqiqi həm maarifçi nəsrin inkişaf mərhələlərini aydınlaşdırmaq, həm də milli ədəbiyyatımızda unudulmuş bir maarifçi ziyalının fəaliyyətini elmi dövriyyəyə gətirmək baxımından xüsusi əhəmiyyət daşıyır.*

**Ədəbiyyat siyahısı:**

1. AMEA M. Füzuli adına Əlyazmalar institutu, Sərkarov Ə. M. "Əlvahi-həyat" B-1455/3080
2. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. Bakı, "Elm", 2012, 104 səh.
3. Həbibbəyli İ., Maarifçilik və realizm: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. - 525-ci qəzet. Bakı, 2017, 16 dekabr, s. 8-9
4. Qarayev Y., Realizm: sənət və həqiqət (Azərbaycan realizminin mərhələləri). Bakı, "Elm", 1980, 251 səh.
5. Seyidov F. Ə., Qori seminariyası və onun məzunları, Bakı: "Maarif" nəşriyyatı, 1988, 298 səh.

**Gulush Safarzadeh**

**Ali Sarkarov's "Alvahi-hayat" collection of short story as a continuation of the ideology of enlightenment literature**

***Summary***

The article examines the collection of short stories "Alvahi-hayat" ("Life boards") by Ali Sarkarov. One of the representatives of Azerbaijani enlightener prose of the early 20th century. In terms of idea and content, the writer's stories highlight the people's liberation from ignorance and the importance of science and education. The article analyzes the stories "They Closed", "Melaksima", "Sister Sharifa", and "In One of Our Households" in the context of enlightened realism. The artistic and aesthetic characteristics, Image system, and language and style features of his works are examined. As a conclusion, it is shown that A. Sarkarov's work is of great importance as a continuation of enlightened prose combining pedagogical and humanistic ideas in Azerbaijani literature.

***Keywords:*** *Ali Sarkharov, "Alvahi-hayat", manuscript, enlightenment, Gori seminary, women's education, ignorance*

*Filologiya üzrə fəlsəfə doktoru, dosent* ***Əli Əliyev***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*